# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**“Etibarlı Tərəfdaş Konsepsiyası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 dekabr tarixli 837 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə**

“Etibarlı Tərəfdaş Konsepsiyası”nın təsdiq edilməsi haqqında ”Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 dekabr tarixli 837 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə:

1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi:

1.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 dekabr tarixli 837 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Etibarlı Tərəfdaş Konsepsiyası”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının (bundan sonra – Tədbirlər Planı) 8.1.1-ci yarımbəndinin icrası ilə bağlı təkliflərini 2027-ci il dekabrın 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Tədbirlər Planının 8.1.2-ci yarımbəndinin icrası ilə bağlı təkliflərini 2027-ci il dekabrın 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Tədbirlər Planının 8.1.3-cü yarımbəndinin icrası ilə bağlı təkliflərini 2027-ci il dekabrın 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Tədbirlər Planının 8.2.1-ci yarımbəndinin icrası

ilə bağlı təkliflərini 2027-ci il dekabrın 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Tədbirlər Planının 8.2.2-ci yarımbəndinin icrası ilə bağlı təkliflərini 2027-ci il dekabrın 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Tədbirlər Planının 8.2.3-cü yarımbəndinin icrası ilə bağlı təkliflərini 2027-ci il dekabrın 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.7. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Tədbirlər Planının 8.3.2-ci yarımbəndinin icrası ilə bağlı təkliflərini 2027-ci il dekabrın 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Tədbirlər Planının 8.1.4-cü yarımbəndinin icrası ilə bağlı təkliflərini 2027-ci il dekabrın 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (bundan sonra – Mərkəz):

3.1. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini təmin etmək məqsədilə “Etibarlı Tərəfdaş Konsepsiyası”nın icrasının monitorinqi və hesabatlılıq modulu”nun (bundan sonra – Modul) Mərkəz tərəfindən hazırlanmış Vahid Elektron Hesabatlılıq Portalı çərçivəsində formalaşdırılmasını 2 (iki) ay müddətində təmin etsin və növbəti ildən Tədbirlər Planının monitorinqini və qiymətləndirilməsini Modul üzərindən həyata keçirsin;

3.2. Konsepsiyada qeyd olunmuş tədbirlərlə bağlı icraçı orqanlar (qurumlar), iqtisadi rayonlar, şəhər və rayonlar icra müddətlərini, layihələrlə bağlı (Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”na uyğun olaraq informasiya sisteminin informasiya təhlükəsizliyi tələblərinə cavab verməsi ilə bağlı rəy, informasiya sisteminin Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edilməsi, informasiya sisteminin, o cümlədən onun ehtiyat nüsxələrinin “Hökumət buludu”nda saxlanılması, smeta sənədləri, maliyyə vəsaitinin ayrılması, satınalma və müqavilələrin bağlanılması və s.) məlumatları və digər zəruri göstəriciləri təsnifatlandırmaqla, mövcud vəziyyət barədə informasiyaları təmin edən sistemdə hesabatlılığa imkan verən müvafiq bölmələrin Modulda yaradılmasını təmin etsin;

3.3. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqinin nəticəsi barədə məlumatları ildə bir dəfə, hər il martın 5-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.4. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının qiymətləndirilməsinin nəticəsi barədə məlumatları 2029-cu il iyunun 30-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.5. Modulun yaradılması və Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqinin və qiymətləndirilməsinin aparılması xərclərini Mərkəzin növbəti illər üçün büdcəsində nəzərə alsın.

4. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlər üzrə əsas icraçı orqanlar (qurumlar):

4.1. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin aidiyyəti üzrə icrası məqsədilə əsas və digər icraçı qurumların rəhbərlərinin müavinlərindən ibarət məsul şəxsləri və müvafiq struktur bölmənin rəhbərlərindən ibarət cavabdeh şəxsləri təyin edərək onlar barədə məlumatı 10 (on) gün müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər;

4.2. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin nəticə indikatorları üzrə hədəf göstəriciləri də müəyyən edilməklə illər üzrə bölgüsünü 2 (iki) ay müddətində Mərkəz ilə razılaşdırılmış indikatorlar cədvəlinin nümunəvi formasına uyğun hazırlayaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər;

4.3. monitorinqin və qiymətləndirmənin həyata keçirilməsi məqsədilə Mərkəzə təqdim edilməsi üçün Tədbirlər Planında nəzərdə tutulmuş layihələrin icrası ilə bağlı müvafiq məlumatların “Layihə idarəetməsi” moduluna rübdə bir dəfə, növbəti ayın 15-dək, tədbirlər üzrə ilin yekunları barədə məlumatların isə hər il fevralın 25-dək Modulda yerləşdirilməsini təmin etsinlər.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlər üzrə layihələrin maliyyələşdirilməsi dövlət büdcəsində nəzərdə tutulduğu təqdirdə, onların ilkin ümumi dəyəri dövlət büdcəsində nəzərdə tutulmuş, ayrılmış, istifadə olunmuş və növbəti illərə tələb olunan vəsait barədə məlumatların hər rübdən sonrakı ayın 5-dək Modulda yerləşdirilməsini təmin etsinlər.

6. Bu Sərəncamın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinə həvalə edilsin.

7. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 29 ” “ dekabr ” 2025-ci il

№ 815s